## MİLLİ İFTİXARIMIZ

Xalqını, el-obasını sonsuz məhəbbətlə sevən, Qərbi Azərbaycan, o cümlədən Vətən, torpaq, yurd həsrətli Nəsibə xanım İsrəfil qızının qələmə aldığı hər bir əsərlərində doğma Vətən ağrılarını ön planda verir və bununla bərabər Vedibasar elinin cəsur insanlarını böyük sevgi ilə yad edir. Haqqında söhbət açdığımız " Abbasqulu bəy Şadlinski (2011) tarixi-mənzum romanı da məhz bu vətən, torpaq, el-oba, onun mübariz insanlarına məhəbbət istəyindən pöhrələnmişdir.

Müəllif əsəri Abbasqulu bəy Şadlinskinin anadan olmasının 120 illiyinə ithaf etmişdir. Kitab Azərbyacan Atatürk Mərkəzində müzakirə olunarkən görkəmli alimlər əsərin bütün məziyyətləri haqqında bir - birindən maraqlı rəylər səsləndirmişlər. Bundan əlavə "Redaktordan" başlıqlı yazısında "Vedibasar" qəzetinin baş redaktoru, yazıçı - publisist Sərtib İslamoğlunun romanın janrı ilə bağlı səsləndirdiyi aşağıdakı fikirlər maraqlıdır:

"Poemanı oxuduqca müəllifin Azərbaycan klassik şeir üslubundan bəhrələndiyi qənaətinə gəlirsən. Əsər əsasən məsnəvi üslubunda yazılmış, onbirlik, ondördlük, onaltılıq hecalardan istifadə edilmişdir. Bununla bərabər, yeri gəldikcə şifahi xalq ədəbiyyatının qoşma, bayatı, layla, oxşama növlərindən də uğurla istifadə olunmuşdur".

Roman " Tanrıdan diləyim" sözü ilə başlayır. Nəsibə xanım Tanrıya müraciət edərək türk xalqını bütün bəlalardan hifz etməsini istəyir:

Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!
Namussuzu, bişərəfi döy, Tanrı!
Oğruları, əyriləri söy, Tanrı!
Türkün əməlini daim öy, Tanrı!
Ulu Tanrı! Gözəl Tanrı! Göy Tanrı!

Əsərin "Söz önü" hissəsində müəllif yazmaq istədiyi hadisəyə öz münasibətini bildirir, yazma səbəblərini açıqlayır. Küsüs və Şahablı dağ çaylarının qovuşaraq, Vedi çayına tökülməsini, Vedibasarın hansı ölkələrdə həmsərhəd olmasını, Şadlinskilərin şəcərəsini , Qaraqoyunların hakimi Qara Yusifin XV əsrin əvvəllərində Əmir Teymurun nəvəsi Əbu Bəkrin Vedibsar mahalının Millidərə ərazisində məğlub etməsini, şair- hökmdar Şah İsmayıl Xətainin uşaqlıq vaxtı düşmən əlinə keçməməsi üçün Vedibasarın Bağırsaq dərəsində qədim Kərki şəhərindən olan Əli tərəfindən səbətdə ağacdan asılaraq gizlədilməsini, Urartunun yıxılmasını, Saqaların dövləti idarə etməsini, Ulu babası Qara Ulaşlı, Qorqudu, Oğuzları, Asurunu lərzəyə salan Sandak- Şatəri (Şadəri), Şadlilardan olan Sultan Səlahəddini və sairləri yada salaraq xatırlayır. Fikrinin sonunda Nəsibə xanım əsas söz açacağı qəhramanın Abbasulu bəy olduğuna işarə verərək deyir:

Oğuzun soykökü qədim-uludur,
Mənim qəhrəmanım Abbasquludur.

"Şərəfli bir keçmişi var yurdumun" bölməsində müəllif xalqımızın başına erməni faşistlərinin açdığı min bir müsibətlərdən danışır. Şah İsmayıl Xətainin Çaldıran döyüşündə (1514) məğlub olandan sonra Vedibasar hakimi Əbdi bəy Şamlının bacısı Bəhruzə xanımla ailə həyatı qurmasını və həmin nəsildən olduğunu deyir. Vedibasar camaatının ermənlər və onların havadarları tərəfində 1918, 1948, 1952 və 1988 - ci illərdə yurd- yuvalarından didərgin düşdükləri göstərilir. Bu vətən dərdi, el- obanın didərgin həyat tərzi bu gün də davam edir. Babası Şadliların yurdunun viran qaldığı, düşmən tapdağı altında inlədiyini ürək parçalayan nisgilli harayla car çəkir. Tarixin bu amansız oynuna lənətlər yağdırır və Vətən övladlarımızı yağılara qarşı mübarizəyə səsləyir. Əsirlikdə olan Vediyə qayıdacağımıza inandığını əminliklə belə deyir:

Alışıram, bir arzuyla yanıram,
Olanı, keçəni tez-tez anıram,
Buna varlığımtək mən inanıram:
Bir gün yığışacaq el Vedimizə.

Nəsibə xanım Vedinin kəndlərinin adını çəkir: Şiddi, Böyük Vedi, Kiçik Vedi, Şirazlı, Reyhanlı, Əfşar, Xalisa, Dəvəli , Taytan, Yengicə, Kolanlı, Məngük, Ağbulaq, Ərmik, Haxış, Heyranıs,... Dəhnəz, Əzizkənd və s. Bununla bahəm şairə Vedi və türk igidlərinin mübarizliyi haqqında öz fikirlərini belə səsləndirir:

Türk- oğuzdu adımız, yaşımızı bilən yox,
Çox qədimdir "Şad" ımız, qarşımızda dinən yox.

"Şadlının şanlı oğlu" bölməsində Binnətalı Sultanın oğlanları: Aslan Sultan, Kəlbalı Sultan, Niftalı Sultan və Baba Sultan xatırlanır. Aslan Sultanın qarşısına 1813-cü il Rusiya və İran arasında bağlanan "Gülüstan" sülh müqaviləsindən sonra "Qafqazın generalı məktub yazaraq" şərt qoyur ki, " ya köçməli İrana, ya da tabe olmalı rus çarının əmrinə". Aslan Sultan yurdunu itirməmək üçün çarın əmrinə tabe olur.

Kəlbalı Sultanın Xanbaba adlı oğlu olur. Kəlbalı Sultan qəhrəmanımız Abbasqulu bəy Şadlinskinin babasıdır. Nəsibə xanım bu tarixi hadisəyə nəzər salır və Binnətalı Sultan və onun oğlanlarını xatırlayır. Vedi torpağının ərsəyə gətirdiyi bu böyük şəxsiyyətləri xatırlamaqla şairə xalqının keçmişinə boylanır. Göyçə gözəli Kövsər xanımın Xanbaba bəyə ərə gəlməsini, onun toyunu müəllif poetik boyalarla tərənnüm etmişdir:

Adısa göyçəli Kövsər,
Eli mübarək, mübarək!
Göyçədən gəlin almışıq,
Toyu mübarək, mübarək!

Abbasqulu bəy Şadlinskinin dünyaya göz açması, Kövsər xanımın Xanbaba bəyə ərə gəlməsi və Səməd ağaya bacı olması söylənilir. Kövsər xanımla Xanbaba bəyin Bəhlul, Abdulla, Abbasqulu adlı oğlanları dünyaya gəlməsi deyilir. Bunların içərisində Abbasqulu daha qoçaq və bacarıqlı olduğunu göstərir:

Oğulları doğuldu, sevindi bütün Şadlı,
Cəngavər böyüdülər - qeyrətli, güclü, adlı.

"Torpaq igid yetirir" bölməsində Adranikin Tiflisdə erməniləri başına yığaraq qurultay keçirməsi və erməni ordusu yaratmaq fikri söylənilir. Onun təklifi baş tutmur. Təklif baş tutmadıqdan sonra başına quldur dəstəsi yığaraq Vedi- Tiflis yolunda quldurluq, soyğunçuluqla məşğul olur. Andranik fikirləşir ki, türkləri ayıltmaq olmaz. Azərbaycan oğulları ayağa qalxsa, onları məhv edəcəklər. Elə də olur. Andranikin qulağını kəsirlər, baş götürüb qaçır. (Sultan bəy onun qulağını kəsir)

Ermənilərə qarşı mübarizə aparmaq üçün Abbasqulu bəy "Mübariz dəstə" yaratdı. (Milli birlik) Azərbaycanda ilk dəfə olaraq Milli Hökumətin nümunəsi olan "Vedibasar Komitəsi" yaradıldı. Abbasqulu bəy Şadlinskinin başçılığı ilə "Ağsaqqallar şurası" və "Milli birlik" qurumları fəaliyyətə başladı.

Milli birlik ! -Bizim sabahımızdı,
Birləşməsək, sabah günahımızdı.
Əl açaq Tanrıya, edək dualar,
Əl - ələ yapışmaq zəkatımızdı.

"Mübariz dəstə" nin bir amalı var ki, o da Vətəni yağı ermənilərin caynağından xilas etmək. Ona görə də Abbasqulu bəy Komitə qarşısında belə bir məsələ qoyur:

Komitədə bir qayda, bircə qanunumuz var,
Dilimizdə edirik bu sözləri biz şüar:
Xalq üçün yaşayırıq, torpaq üçün ölürük,
Çörəyi də, suyu da qardaş kimi bölürük.

Müəllif Vətən üçün mübarizə aparanları alqışlayır və sonuncu cümləsində deyir:

Sevinəcək çöl, çəmən, ağlayacaq yağılar,

Nəğmələr oxunacaq, olmayacaq ağılar.

Abbasqulu bəy Şadlinski "Vedibasar Komitəsi "- nin üzvlərindən olan Seyfulla Süleymanovu və Ağa Şadlinski vasitəsi ilə Bakıya xəbər göndərir. Onlar erməni daşnaklarının azəbaycanlıların başlarına gətirdikləri müsibətləri, kəndlərin talan edilərək yandırılmasını, xalqın mal-mülklərinin əllərindən alınaraq yur-yuvalarından didərgin düşmələrini, Bakıya çatdıraraq onlardan kömək istəyirlər ( Seyfulla Süleymanov, Ağa Şadlinski və Zeynalabdin Şixəli oğlu "Vedibasar Komitəsi" nin xarici işlər bölməsinin üzvləri olmuşlar). 1918 - ci ilin mayında müşavirə çağrılır. Abbasqulu bəy Şadlinski çıxış edərək ermənilərin xalqımızın başına gətirdikləri fəlakətdən danışaraq göstərir ki, onlar evlərimizi dağıdır, azərbaycanlıları öldürür, min bir əzablar verirlər. O bu işə son qoyulmasını istəyir.

Bizi yurddan edirlər, neçə ocaqlar sönüb,
Ata-baba evimiz qanlı yuvaya dönüb.

Naxçıvandan Vediyə gələn qonaqlar Abbasqulu bəylə görüşüb geri qayıtdıqdan sonra Abbasqulu bəyi ermənilər şərləyib tutdurdular. Xalqın, Hacı Təhmasib və Şəmdinin rəhbərliyi ilə Abbasqulu bəy Şadlinski azad edilib doğma ocağı Böyük Vedi kəndinə qayıtdı. Xalq öz qəhrəman oğlunun azad edilməsini bayram etdi:

Xalq onu qarşıladı, həyəcanla, ürəklə,
Yığışdılar başına min arzuyla, diləklə.

Abbasqulu bəy həbsdən azad olunduqdan sonra xalqının köməyinə çatdı. Cahanbəxş Abbasqulu bəyə məktub göndərdi ki, Millidərə, Almərdan kəndlərinə ermənilər "Artur gədə" nin başçılığı ilə basqın ediblər, təcili köməyə gəlin. Abbasqulu bəy "Mübariz dəstə" si ilə onların köməyinə getdi. Yellicə, Şorbulaq, Bayburd, Seyidkotan kəndlərini ermənilər yerlə yeksan etmişdilər. Abbasqulu bəyin dəstəsi İlanla dağa gedir. Sultanxan, Hacımirzə və Həbibin dəstələri ona kömək edir. Ermənilər Azərbaycanın 12 kəndini yandırıb dağıdırlar. Cahanbəxş Abbasqulu bəyin köməyindən ürəklənərək ermənilərə qarşı böyük mübarizə aparır. Bu qələbə "Vedibasar Komitə" sinin mübarizliyini daha da artırır. Ancaq ermənilər məğlub olub qaçsalar da, kəndlərin xarabalığa çevirmişdilər. Ermənilər öz işğalçılıq işlərində israrlı olaraq Vedibasara hücuma hazırlaşırdılar. Abbasqulu bəy Vedibasarda olan bütün azərbaycanlıları birləşdirərək erməni daşnaklarına cavab hazırladı.

Qəmərli, Dəvəli, Şirazlı, Qaralar, Avşar Xalisa, Böyük Vedi, Yengicə, Taytan, Birəli, Canaxcı, Hortun, Qaşqaya, Almalı, Qazancı, Yeni yol, Şiddi, Goravan, Arazdəyən, Kərki, Yayıcı, Şorsu, Şorbulaq kəndləridən qaçaraq camaat Göyqumtəpəsi və Həmdəm dərəsində gizlənirdilər. Abbasqulu bəyin göstərişi ilə Müseyib Sultan xan, Həbib, İsmayıl və başqaları birləşərək düşmənə amansız zərbələr vurdular. Daşnak hökümətində Vedinin də daxil olduğu İrəvan qəzə Komissarı Əmirxanov Abbasqulu bəy Şadlinskini təqib edir və onu ermənilərə qarşı apardığı mübarizədən çəkindirməyə çalışırdı.

Ermənilər azərbaycanlıların bütün kəndlərini işğal etməyə çalışırdılar. Onlar dəstə şəklində birləşmişdilər. Ermənilərə qarşı döyüşmək üçün Abbasqulu bəy dostlardan kömək istəyirdi. Qubada, Şamaxıda, Naxçıvanda, Şərurda, Dərələyəzdə, İrəvanda ermənilərin etdikləri vəhşiliklərin qarşısını almaq üçün biz birləşməliyik deyirdi.

Türkiyədən Kərim xana nümayəndə göndərildi. Bağır bəy və türk zabiti Əli Teymur Kəlbalı xanım Naxçıvandan göndərdiyi nümayəndələrdir. Alməmmədli İqbal bəylə gələn qonaqları Abbasqulu bəy qonaqpərvərliklə qarşıladı. Bağır bəy Xəlbalı xanım təklifini Abbasqulu bəy və yoldaşlarına çatdırdı. Kəlbalı xan məktubda Abbasqulu bəyə yazmışdır ki, işləri Əli Teymura tapşır və Naxçıvana gəl. Bu təklifdən Hacı Təhmasib, Şəmdin, Nəsrulla narazı qaldılar. Abbasqulu bəy Kəlbalı xanın təklifinə cavab vermədi. Bağır bəy və Əli Teymur Naxçıvana qayıtdılar.

1918- ci il 4 iyun tarixində Batum anlaşmasına əsasən Qars, Ərdahan və Batum vilayətləri Türkiyəyə verilməli idi. Andranik bu sazişi pozmaq üçün gecə Naxçıvana, Yaycıya basqın etdi. Andraniklə Şamuyan

əl bir olaraq azərbaycanlılara tələ qurdular. 1918- ci ilin yay günü ermənilər Vediyə yenə hücum etdilər. Dəli Kazon və Aramın qaniçən dəstəsi azərbaycanlıların başına olmazın müsibətin gətirdilər Çimənkəndən Məhərrəmi və İsmayılı köməyə çağırdılar. Səttar oğlu Musanın, nəslinə od vurmuşdular. 27 nəfəri öldürmüşdülər. Köməyə Yetim Əli, Fərəməz bəy və Səttar oğlu Musa gəldilər. Türk qoşunu Vedibasara gəldi. Abbasqulu bəy onları qonaqpərvərliklə qarşıladı. Qərargahı onlara verdi. Yaylaqdan el-oba öz yerinə qayıdırdı. Dağda hazırlanan pendir, qurud, motalları arabalara yığıb arana gətirirdilər.

Böyük Vediyə gələn köçə baxan Abbasqulu bəy onları salamlayır camaatın salamat gerdi döndüyü üçün Tanrıya şükür edir. Gələnlərdən Abbasqulu bəy Sultanyurdumuzdan xəbər tutdu (Sultan yurdu Əyricə yaylağında Bala Sultanın yurd yeridir). Xəlil, Musa, Yetim Əli cəsur igidlər idi. Onların əsas düşmənlərindən biri erməni Haçik və Aşot idi.

Abbasqulu bəy yağılara qarşı amansız olacağını and içdi. Sultan bəyin otağında iclas çağırdılar və qərara gəldilər ki, düşmənə qarşı birləşib mübarizə aparsınlar. Xəlil, Abbas, İmanverdi on beş atla yola çıxaraq Arazı keçib silah- sursat gətirməyə gedirlər. Səfərbərlik edildi və düşmənə qalib gəlmək üçün döyüşə atıldılar.

1918- ci il dekabrında Andranikin rəhbərliyi ilə ermənilər Arazın bu tayına keçdilər. Abbasqulu bəy türklərə xəbər göndərdi ki, ermənilər hücuma keçirlər bizim köməyimizə gəlin. Bu işdə Məhərrəm və İsmayıl fəal iştirak edirdilər. Camaat düşməndən qurtulmaq üçün Böyük Vediyə, Şahablıya və Qəmərliyə qaçdılar. Ermənilər Şahablıya hücum edib ot tayalarını yandırdılar.

Aşıq Cəlilin də başına müsibət gətirərək öldürdülər. Abbasqulu bəyə xəbər göndərdilər ki , daşnaklar kəndə girdilər və kəndli od - alova bürüdülər.

Aşıq Cəlil qurban getdi vətənə,
Səda düşdü, səs yayıldı yetənə,
Can demədi yoldan, üzdən ötənə.
Şimşək olub bircə anda çaxdılar,
Diri -diri yandırdılar, yaxdılar.

Nəsibə xanım deyir: Ah - nalə ərşə qalxdı və adımı unutdum . Arzu və istəyim öldü. Fələk taleyimi böldü. Yarısı həsrətə düşdü, yarısı isə bu işə güldü. Daşnaklar "balta" və "nizə" ilə üstümüzə gəldilər və öldürüb - odladılar bizi və üstümüzə gəlmədiniz. Xəyalım dolaşdı, namərdə rast gəldim və onun gülləsinə tuş oldum. Torpağım və adım getdi, ona görə də, ağzımın dadı da onunla getdi. Bu dərdən əlimdə qələmimdə ağladı Mirzə Bağır öz gündəliyində Vedibasar torpağında erməni daşnaklarının törətdiyi faciəni xatırlayaraq yazır:

Adamlarımızın başına min bir müsibət açdılar. Hamını qılıncdan keçirdilər. Bütün kişiləri öldürdülər. Dəhazda, Çiməndə, Keşişdağda, Kərkabda, Qədirlidə, Şahabda qan su yerinə axdı. "Van" la "Sasun" qəflətən hücum etdilər kəndlərimizə.

1919- cu ildə düşmən Naxçıvana daxil oldu. Düşmənlər Dolxanovun (daşnak qoşunlarının polkovniki) başçılığı ilə Böyük Vediyə daxil oldular və azərbaycanlıları qovub evlərində erməniləri yerləşdirdilər. Müsəlmanlara zülm verirdilər. Daşnak Doluxanov burada böyük müqavimətə rast gəldiyi üçün yolunu Dərələyəzə saldı. Dərələyəzdə xeyli vəhşiliklər törətdi. Kəlbalı xan gələnə qədər hər tərəfi oda qərq etdilər. Vətən övladları rəşafətlə döyüşərək daşnakları torpaqlarından çıxartdılar. Dəmirçidən Dəvəliyə tərəf Kəlbalı xanın adamları erməniləri qovdular. Doluxanovun cəllad dəstəsi məğlubiyyətə uğradı və Dolxanov daşnakların generalı olan Bekprimovu köməyə çağırdı. Gah onlar Naxçıvanla sülh bağlamaq istəyir, gah da qan tökürdülər. Avşar kəndində yüz nəfəri qətlə yetirdilər. Avşar kəndində törədilən fəlakət Abbasqulu bəyə çatdı və o, "Mübariz dəstə" si ilə onların harayına gəldi və düşmənə zərbə vurdu.

Abbasqulu bəy papağını, arvadını, xan atını, torpağını qeyrətlə qorudu. Vedi üçün canını fəda etdi. Abbasqulu bəy erməniləri susdurdu, ancaq ermənilər ingilislərlə birləşərək Naxçıvanı və Qəmərlini bir-birinə

qatdılar. Ermənilər Qanzak, Şərur, Dəhnə və Ordubadı da qarışdırdılar. Bu torpaqları ermənilərin fitfası ilə ingilislər"Hakəzə yerlər" adlandırdı. (İngilis qoşunlarının Ali Komissarı V.Haskelin1919- cu ildə Azərbaycan Cumhuriyyətinə təqdim etdiyi layihədə Vedibasar mahalını, Naxçıvanı və Şərur - Dərələyəzi birlikdə neytral zona hesab etmişdir.)

Cəsur Abbasqulu bəy Şadlinski onların hamısına cavab verdi və bildirdi ki, bu torpaqlar bizimdir. Rusun, ingilisin və ermənin bu torpaqlara qarışmağa heç bir haqqı yoxdur.

Qızın gözü önündə ermənilər anasını tikə-tikə doğrayır və atasını tonqala atıb yandırırlar. Qardaşının doğranılaraq atılmış əl - ayağı gözü önündədir. Bacısını lüt soyundurub başına yüz oyun açaraq öldürdülər. Indi yetim tifil qız qalıb ortalıqda. Ona ancaq Abbasqulu bəy və bir də Yaradan kömək edə bilər. Bu hadisədən sonra şairənin yadına gölləri, yemlik, salmanca, çobanyastığı , qantəpər, acı biyan, baldırğan yığdığı anlar düşür. Fatma nənəsini xatırlayır.

Qaraxaca, Canaxcıya və Qədirliyə qan tökülürdü. Ermənilər Böyük Vediyə hücum etməyə hazırlaşırdılar. Bu hadisədən Abbasqulu bəy xəbər tutdu. Başına topladığı Vedibasar igidləri ilə erməni daşnaklarına layıqli cavab verdi və onları məğlub etdi. Bu döyüşdə Nəsrulla və Usta Əhməd şəhid oldular. Ingilislər hiylə ilə Abbasqulu bəyi tutub İrəvana apardılar. Geri dönən Xəlil və Həbib Abbasqulu bəyi xilas etmək üçün yollar axtarırdılar. Abbasqulu bəy Xatısova "biz razılaşarıq" deyərək onu aldatdı və xilas oldu. Onun yolunu Hüseyn bəy və Məhəmməd xan səbirsizliklə gözləyirdilər.

Erməni daşnakları Vedi üzərinə hücum etməyə çalışsalar da Abbasqulu bəyin səyi nəticəsində Vedililər qalib gəldilər. Dro və Xatısov kimlər erməniləri hücuma hazırlayır və Vedini işğal etmək istəyirlər. Abbasqulu bəy onların hamsını məhv etdi. Ingilislərin fitvası və Dronun başçılığı ilə Böyük Vediyə yenə də hücum hazırlandı. Bu döyüşdə Hüseynalı oğlu Oruc, Səfəralı, Fərəməz bəy, Şadlinski, Heydər bəy, Qaçaq Rəsul, Fərzəliyev, Əmir, Abuzər qardaşları, Yetim Əli, Şəmsəddin bəy, Xəlil, Cahanbəxş, İsmayılın oğlanları rəşadətlə döyüşdülər Düşmən məğlub oldu. Türk paşası Atatürkə Abbasqulu bəy haqqında xəbər çatdırılır. Atatürk onu Türkiyəyə vəzifəyə dəvət etsə də,Abbasqulu bəy getmir və Vedini qoruyur.

Ermənilər hər tərəfdən Böyük Vediyə hücum edirdilər. Vedililərin köməyinə Şərurlu Fətulla bəy və Şəmsəddin bəy Mahmudbəyov (Şəmdin) gəldi. Bu döyüşdə Mahmudbəyov Şəmsəddin bəy həlak oldu. Mikoyan və Yefromov tələ quraraq yenə də hər tərəfdən Böyük Vediyə hücuma hazırlaşırlar. Abbasqulu bəy kənd camaatını (qocalar, qadınlar, uşaqlar) düşmən əlinə keçməsin deyə onları Şərura tərəf getməsini məsləhət bildi. Döyüşdə Gümüş Məmməd, Zeynalabdin, Hacı Təhmasib, Məhərrəm (Məşədi Məhəmməd oğlu Məhərrəm) və başqaları şəhid oldular. "Mühacir həyatı" bölməsində 1918, 1948,1952- ci illərdə Qərbi Azərbaycan türklərini Ata yurdundan qovulduğu, departasiya edilməsi, didərgin düşdükləri göstərilir.

Əzilmişik zaman-zaman,
Doğranmışıq dilim-dilim,
Namərd verməyibdir aman,
Qara geyib ayım, ilim.

Venidən köçən elin fəryadını Nəsibə xanım iki misra ilə belə söyləyir:

Bir el köçür yuvasından, Vedibasar qəribsəyir,
Ayrılığa göy ağlayır, göz yaşları yerə dəyir.

Bəy oğlunun (Abbasqulu bəyin) xahişi ilə körpünü açırlar. Zəngibasar, Vedibasar, Dərələyəz, Şərur qaçqınları İran tərəfə keçdilər (daşnakların caynağından xilas olma qüçün). Hüseynalı kişinin arvadı boylu idi. Uşağı dünyaya gətirmək üçün ağrı çəkirdi. Araz çayını keçmək üçün camaat tələsirdi. Qadın kolun dibində uşağı dünyaya gətirdi. Onun göbəyini çarıq bağı ilə bağladılar. Yeni doğulan uşağı Arazda çimizdidilər. Qarayanız qız uşağı əmim oğlu Nicat doğuldu deyə sevincini camaata bildirdi:

Araz doldu, ağladı,

Dərd köksünü dağladı,
O qədər qaçqın gördü,
Könlü yara bağladı.

Onlar Ərəblər kəndinə sarı getdilər. Arazın qırağında Ərəblər kəndinin yanındakı "Sarı su" torpağında dayandılar. Burada Zəngibasar, Çivə, Şərurlular da Vedibasar camaatı ilə birgə idilər. Abbasqulu bəy danışıq apardı. Xoyda, Çorsda camaatı yerləşdirməyə çalışdı. Sonra Bəydərvində və Çayparada yerləşdirdi. Xoyda günləri ağır keçdi. Əzət nənə belə bir bayatı çağırdı:

Ulduz Vedi, Ay Vedi,
Yoxdur sənə tay, Vedi.
Ağrı dağın qarından,
Saxla bizə pay, Vedi.

Sonra Mərəndə köçdülər. Abbasqulu bəyin sözü Mərənddə keçdi. Qaçqınlara nəzarət edən Fərəməz bəy və İbrahimbəy idi. Isgəndərlə İsfəndiyar da ( İsgəndər və İsfəndiyar Abbasqulu bəyin oğlanlarıdır) fəallıq göstərirdilər. Qaçqınlar bir müddət Mərənddə qaldılar.

"Vedimə qaytarın, qaytarın məni" şeirində Nəsibə xanım yurd-yuvasından didərgin düşdüyünü -Vedi üçün fəryad qopararaq aləmə səs salır:

Hanı o bağçalar, hani o bağlar,
Hani o dərələr, hani o dağlar,
Xəyala dönübdu bəxtiyar çağlar,
Vedimə qaytarın, qaytarın mən

1988 - ci ildə yenidən Vedidən qaçqın düşənlərin geri qaytarmaq üçün Abbasqullu bəy kimi igidlərin ortaya çıxaraq xalqı erməni daşnaklarının zülmündən qurtararaq geriyə dönmələrini dilə gətirir:

Hanı Abbasqulu, hanı ərənlər,
Hanı dərdimizə dərman verənlər,
"Az qalıb, bir azca dözün" deyənlər,
Vedimə qaytarın, qaytarın məni.

Şairə burada Ağrı dağını, Avşar, Şiddi, Xalisa , Dəvəli və Vedi kəndlərini və bundan əlavə Əzət nənənin bayatılarını, "Taharın armudu, Əsgərin tutu" nu xatırlayaraq deyir:

Taharın armudu, Əsgərin tutu,
Hər tərəf sirr dolu, bir bağlı qutu,
İllərdi gözlərim, yanağım sudu,
Mən də o kənddənəm, o kənddən,qardaş.

"Zəfər görüşü" hissəsində yenə də ermənilər Zəngəzur və Naxçıvanı almaq istəyir. Nəriman Nərimanov bolşevik qoşunları vasitəsi ilə erməni daşnaklarını məhv edir. Daşnakların sağ qalanları canının qorxusundan qaçıb gizləndilər.

Bolşeviklərin tərkibində Mahmudbəyov ( Fərəməz bəy Mahmudbəyov), Babayev və Səlimov da iştirak edirdilər. Vəlibəyov qaçqıqların geriyə - vətəninə qaytarılması təklifini irəli sürdü. Camaat bu şəxslərə inanib geri qayıtmaq istəmirdilər.

Hamı bir nəfər kimi Abbasqulu bəyə inandığı üçün nümayəndə heyəti Naxçıvandan Süleymanovu Abbasqulu bəyin yanına göndərdilər. Nümayəndə heyətini Abbasqulu bəy açıq ürəklə qarşıladı.

"Qırmızı tatar" adlı hərbi qüvvə yaradıldı. Abbasqulu bəy də tabora rəhbər təyin edildi. Şərurlu bir qızda 1920 - ci ilin payızında (Əfruz) Abbasqulu bəyə məktub yazıb onun "Qırmızı tabor" a qoşulmasın icazə istədi. Abbasqulu bəy Əfruzu tabora qəbul etdi (Əfruz Abbasqulu bəyə, Abbasqulu bəy də Əfruza şeirlə

məktub yazmışdı). Abbasqulu bəyin komandalığı altında "Qırmızı tabor" erməni daşnaklarını məğlub edir. Və bütün kəndlər, o cümlədən Vedibasar rayonunun kəndi daşnaklardan təmizlənir. Düşmən qüvvələri darmadağın edilir. Qızıl ordu da bu döyüşdə "Qırmızı tabor" çulara yaxından köməklik göstərirlər. Abbasqulu bəy öz kəndlərinə və evlərinə gedir. Kəndi gördükdən sonra ayrılıq anı sona çatır:

Sənsiz günüm il oldu,
Yanan ürək, dil oldu,
Qoynundan ayrı düşdüm
Beş ayım min il oldu.

Abbasqulu bəyin Komandalığı altında Şərur, Danzik , Arazdəyən, Zəncirli, Çanaxçı azad edildi. Yasonun dəstəsini "Qırmızı tabır" darmadağın etdi. Daşnakları İrəvana qədər qovdular. Gorus, Mehri, Qafan daşnaklardan xilas edildi. Tabor Göyçə -Dilcanı da azad etdi. Abbasqulu bəyə Yusif, Məhərrəm bəy, İbrahim, Yetim Əli yaxından köməklik göstərdilər. Ermənilərin bolşevik maskası altında azərbaycanlılara divan tutmasının üstü açıldı və onlar məğlubiyyətə düçar oldular.

1918- ci ildə Qars müqaviləsi bağlandı. Stalin və Mikoyan Azərbaycan xalqını hər zaman daşnakların ayağına verdilər və azərbaycanlılar yenə də daşnaklardan zərər çəkdi.

"Sınaqlı günləri yaşayan Vedim" bölməsi "Aclıq illəri" və "Abbasqulu bəy quruculuq illərində" başlıqları altında şərh edilir. Qızı ac olan ana nə qədər danışsa da, uşağı ovuda bilmir. Anası qıza deyir ki, atan Abbasqulu bəylə qayıdıb gələndə nəsə gətirər yeyərsən. Uşaq ağlayır. Ananın nitqi qəfildən tutulur və dərdə dözməyərək ölür. Uşaq bilmir ki, anası ölüb onu qucaqlayıb ağlayır. Bu hadisələrin şahidi Heydər oğlu Bilas kişidir. Abbasqulu bəyin oğlu İsgəndər də atasının yanında çalışırdı. Onlar Dəvəlidə kərpic zavodu işlədirdilər. Bu iş Abbasqulu bəyə görə kiçik olsa da, ancaq bəy işini bəyənirdi. "Məkr və xəyanət " bölməsi "Daşnakların son hiyləsi", "Ailə ilə halallaşma", "Xəlil xatırlayır", "Pusqu", "Bəyin ölümünə", "Camışbasanda matəm" və "Böyük Vedidə dəfn" başlıqlarından ibarətdir. Daşnaklar "bolşevik" maskası altında gizlənərək bütün bəd əməllərini həyata keçirirdilər. Birinin arxasında Nataşa xalası durur, digəri isə "Şeytan Zakaryan" dır ki, hiylələrindən yaramaz xislətindən əl çəkmir. Xəlil evdən çıxanda yazdığı məktubu həyat yoldaşına verib getdi. Abbasqulu bəyi Xəlil və Talıbov müşayiət edirdilər. Onlar danışıq aparmaq üçün gedirdilər. Xəlil yeni dünyaya gələn oğluna Nəriman adı qoymuşdur. Xəlil söyləyir ki, Abbasqulu bəy bizə tapşırmışdır ki, camaatı başınıza yığıb əkin- biçinlə məşğul olun. Camaatı aclıq və səfalətdən bu yolla çıxarmaq olar:

Deyirdi biz gərək sevək torpağı,
Ananı, Vətəni, bir də bayrağı,
Anadan doğulub, torpaqda öllük,
Sevinci Vətənlə, bayraqla böllük.

Abbasqulu bəyi, Xəlili və Talıbovu gedərkən yolda pusquya salırlar. Atılan ilk güllə Xəlilə dəyir.

O, atın yəhərindən yerə düşür. Sonra atılan güllə Abbasqulu bəyə tuş gəlir. O da gözlərini əbədi yumur. Ancaq onlar ölümləri ilə ölümsüzləşir və yaddaşlarda əbədi yaşayırlar. Abbasqulu bəyin ölümünə xalqı matəm saxladı və ağladı:

Bir məktəb yaratdı özülü özü,
Yarımçıq kəsildi ağzında sözü,
Arxadan vurdular, görmədi gözü,
Bəyin ölümünə yellər ağladı.

Abbasqulu bəyin və Xəlilin meyitlərini at belində dədə - baba yurdları olan Böyük Vedi kəndinə gətirdilər:

Cüt tabut gəlirdi atın belində,
Acı göz yaşının leysan selində...

... İllərlə vuruşdu, döyüşdü əbəs ?
Namərdin əliylə kəsildi nəfəs.

9 may 1930 - cu ildə Böyük Vedidə Abbasqulu bəylə Xəlili dəfn etdilər:

Yenə də toy tutdu bizə yağılar,
Yenə ellərimiz qara geyindi.
Dillərə sığmadı qanlı ağılar,
Ürəklər sızladı, dodaq deyindi.

"Söz sonu" başlığında Nəsibə xanım dünyanın müəmmalı işlərindən, həyatın enişli- yoxuşlu anlarından, erməni yağılarının başımıza açdıqları min bir oyunlardan və ümumiyyətlə, ədalətsiz dünyanın dolanbaz yollarından gah bədbin, gah da nikbinliklə xüsusi poetik dillə yerli - yerində və ustalıqla danışır:

... Fələyin işindən baş açmaq olmur,
Gülün qamətinə dolanır hey sar...
...Kimə qucağını açıb gəl deyir,
Kiminsə yerini vaxtsız edir dar.

Sonda Nəsibə xanım xalq qəhrəmanın Abbasqulu bəy Şadlinskiyə sözdən abidə ucaltmaq istədiyini bəyan edərək deyir:

Burda dastanım bitəcək sona,
Bu ellər, obalar könlündə ona,
Böyük bir abidə ucaldıb, bilin,
Gözlərdən kədəri, qüssəni silin.

Abbasqulu bəy Şadlinski xalqı üçün canını fəda etdiyinə görə xalqımızın qəlbində əbədi kök salmış unudulmaz şəxsiyyət və milli iftixarımızdır.

Nəsibə xanım da romanda onun həyat və mübarizə yolunu zərgər dəqiqliyi ilə poetik bir dillə çözməyə çalışmış, Vedibasarın tarixini vərəq- vərəq incələmişdir. Məlum olan və hələ də kölgədə qalan faktları üzə çıxardaraq araşdırmış, hadisələri yeni ampulada canlandırmış və isti nəfəsi ilə onlara yeni həyatı nəfəs vermişdir. Bunlarla bahəm müəllif müəyyən tarixi məlumatlara söykənərək olduqca maraqlı məsələləri ön plana çəkmiş və onlara işiq salmışdır. Tarixi - mənzum roman olan " Abbasqulu bəy Şadlinski" öz milli koloritinə görə diqqəti özünə hər zaman ram edə bilir. Nəcibə xanım romanı bir birinə zəncirvari bağlayan bölmələrə ayırmış, əhvalatları çözərkən bu ardıcıllığı lazımı şəkildə gözləmişdir.

Poetik baxımından əsərin quruluşu, bədii üslub rəngarəngliyi, dilinin aydın və şirinliyi, ifadələrin səlisliyi, fikirlərin tamlığı, qarşıya qoyulan məqsədin bitginliyi əsəri daha canlı etmişdir.

Bölmələrin müxtəlif adlar altında cəmlənməsinə baxmayaraq, onları bir ideya, bir amal birliyə çağırır - Vətən, yurd, el- oba və torpaq həsrəti, doğma Vətəni müdafiə edən qəhrəmanların mübarizliyi. Xalq qəhrəmanı Abbasqulu bəyin də milli azadlıq uğrunda apardığı mübarizənin də əsil mahiyyəti - Vətəni azad görmək, torpaqlarımızı yağı erməni daşnaklarının caynağından xilas etmək . Beləliklə, Nəsibə xanım İsrəfilqızının "Abbasqulu bəy Şadlinski" tarixi - mənzum romanı öz dəyər - qiymətini görə xalqımızın yaddaşında Milli azadlıq mübarizəmizin salnaməsi kimi həkk olunmuşdur.

Nəhayət, sonda belə bir naticəyə gəlmək olar ki, Nəcibə xanımın "Abbasqulu bəy Şadlinski" tarixi - mənzum romanı Milli iftixarımız olan Abbasqulu bəy Şadlinskinin qəhrəmanlığını özündə ehtiva edən möhtəşəm bir sənət abidəsidir.

**Sabir Rüstəmoğlu (Məmmədov),**
ADPU -nun Ağcabədi filialının dosenti, AYB və AJB - nin üzvü

Ədalət- 2018.- 5, 6,7 dekabr.- S.5.